**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**
**PENİTENSİAR XİDMƏT**
**BAKI İSTİNTAQ TƏCRİDXANASI**

AZ-1104, Azərbaycan, Bakı şəhəri, Sabunçu rayonu, Zabrat 2 qəsəbəsi
Telefon və Faks:(+99412) 565-67-62
Elektron poçt: pxbit@penitensiar.justice.gov.az


---

Vəkillər Kollegiyası
Rəyasət Heyyətinin sədri
cənab Anar Bağırova

Hörmətli Anar müəllim!

Bakı İstintaq təcridxanasında saxlanılan həbs olunmuş Salmanov Taleh Teymur oğlunun ərizəsi Sizə göndərilir.

Qoşma: 3 vərəq

Hörmətlə,
Rəis vəzifəsini müvəqqəti icra edən
ədliyyə mayoru — Cavid Güləliyev

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4040
«21» 09 2026 il

---

**Qurumun adı:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyi
**Imzalanma tarixi:** 07.09.2026
**Sənədin nömrəsi:** 3-16.17.40.2-280872.2026
**İmzalayan şəxs(lər):** CAVİD GÜLƏLİYEV RAMİZ OĞLU - Rəis müavini
Həqiqiliyin yoxlaması linki
Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Azərbaycan Respublikası
Vəkillər Kollegiyasının Sədri
Cənab Anar Bağırova

AR-sı Ədliyyə Nazirliyinin P.X-nin
Bakı İstintaq Təcridxanasında saxlanılan
Salmanov Fateh Teymur oğlu tərəfindən - ərizə

Hörmətli Anar müəllim,

Xətai Rayon Məhkəməsinin icraatında olan cinayət işim üzrə hazırda müdafiəçi Bakı şəhəri 13 saylı Vəkil Bürosunun vəkili İlhamə Mehdiyeva təyin edilmişdir.

Vurğulamaq istəyirəm ki, müdafiəçim Bakı şəhəri 13 saylı Vəkil Bürosunun vəkili İlhamə Mehdiyeva cinayət işim üzrə məni müdafiə edərkən «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Qanunun 16-cı maddəsini rəhbər tutaraq, peşə fəaliyyətini həyata keçirərkən vəkil qanununun tələblərini icra etməklə yanaşı, mənim mənafelərimi qorumaq üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün üsullardan istifadə etməklə vəkil sirrini qoruyur, vəkil andına və vəkil etikasına riayət edir.

Xüsusilə vurğulayıram ki, vəkil İlhamə Mehdiyeva cinayət işim üzrə məni tam, hərtərəfli və obyektiv müdafiə etməyi ilə yanaşı, mənə qayğı ilə

yanaşır.

Həqiqətəndə fəxr olunası və ürək açan bir məqamdır ki, Respublikamızda bu cür peşəsinə və vətəndaşına sadiq vəkil vardır.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, AR-nın ərazisində hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunması və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsi məqsədi ilə «Vəkillər və vəkillik fəaliyyəti haqqında» AR-nın Qanunu qəbul edilmişdir.

Müdafiə hüququ şəxsin qanuni maraqlarının təminatı ilə yanaşı, həm də ədalət mühakiməsi maraqlarının təminatıdır, sosial dəyərdir. Hər kəsin hüquqi yardım almaq hüququnun təmin edilməsi ilə bağlı yaranan hüquq münasibətləri özündə ictimai maraqları əks etdirdiyi üçün dövlətin bu sahədə üzərinə düşən konstitusiya öhdəliklərinin yerinə yetirilməsinə dəlalət edir. Bu isə dövlət tərəfindən zərurət olduqda şəxsin hüquqlarının müdafiəsi üçün pozitiv tədbirlərin görülməsini tələb edir.

Yuxarıda göstərilən təkzibolunmaz faktlara əsaslanaraq, vəkil İlhamə Mehdiyevanın dəqiq, qərəzsiz və obyektiv, habelə uğurlu iş fəaliyyətini izləyə çəkərək, hesab edirəm ki onun bu cür iş prinsipi və zəhməti dəyərləndirilməlidir.

Odur ki, Bakı şəhəri 13 saylı Vəkil Bürosunun vəkili İlhamə Mehdiyevanın uğurlu və peşəkar iş fəaliyyətinin tərəfinizdən qiymətləndirməyinizi Sizdən xahiş edirəm.

- Qeyd: Nəticəsi barədə müraciət müəllifinə məlumat verilməsini xahiş edirəm.

Təqsirləndirilən şəxs: Salmanov Taleh Teymur oğlu.

İmzalanma tarixi: 07 sentyabr 2026-cı il.